

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 oktyabr 2023-cü il №77 (2789) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Dövlətimizin başçısı Vladimir Putini ad günü münasibətilə təbrik edib, ona dövlətçilik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, əməkdaşlığın perspektivləri və yeni təmaslar ilə bağlı məsələləri müzakirə ediblər.

* * *

Oktyabrın 7-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti əsnasında regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı qeyd edib ki, Qranadada Azərbaycanın iştirakı olmadan Azərbaycan adının dördtərəfli bəyanata daxil edilməsi düzgün yanaşma deyil. Prezident İlham Əliyev, həmçinin Fransanın məlum mövqeyinə görə Azərbaycanın Qranadadakı görüşdə iştirak etmədiyini bildirib. Dövlətimizin başçısı xüsusilə vurğulayıb ki, Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaq.

Eyni zamanda, dövlətimizin başçısı Avropa Parlamenti tərəfindən ksenofob və şovinist yanaşma əsasında qəbul edilmiş anti-Azərbaycan xarakterli bəyanatın, orada səsləndirilən fikirlərin qəbuledilməz olduğunu diqqətə çatdırıb, bunun regionda sülhün və sabitliyin təmin olunmasına xidmət etmədiyini deyib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək suverenliyini tam şəkildə təsbit edib və öz ərazisində mövcud olan qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsini təmin edib. Bu baxımdan Azərbaycanın atdığı addımlar beynəlxalq hüquqa tam şəkildə uyğun olub. Dövlətimizin başçısı əlavə edib ki, əksinə, bu məsələni başa düşməyən dövlətlərin özlərinin dünyanın müxtəlif bölgələrində həyata keçirdikləri siyasətlərinə görə beynəlxalq hüquqla ciddi problemləri var.

Prezident İlham Əliyev mərkəzi hökumət tərəfindən Qarabağdan olan erməni sakinlərə humanitar yardımların göstərildiyini və onların qeydiyyatı prosesinin başlandığını bildirib. Azərbaycan Prezidenti vurğulayıb ki, məhz qondarma rejim ermənilərin ərazini tərk etməyə və oradan köçməyə məcbur edib.

Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla İran arasında regional nəqliyyat dəhlizinin yaradılması istiqamətində işlərin aparıldığını qeyd edib, bu xüsusda Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin keçirildiyini deyib.

Şarl Mişel öz növbəsində Avropa İttifaqının Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində səylərini davam etdirməyə hazır olduğunu bildirib.

## Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə oktyabrın 8-də Gürcüstana işgüzar səfər edib.*

Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili oktyabrın 8-də Tbilisidə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "The Architect of Prosperity" - "Firavanlığın memarı" adlı fotosərgi ilə tanış olublar.

Dövlətimizin başçısına və Gürcüstanın Baş nazirinə sərgi ilə bağlı məlumat verilib. Qeyd olunub ki, Azərbaycanı müasir və iqtisadi cəhətdən çiçəklənən ölkəyə çevirən Azərbaycan xalqının Ümummilli Liderinə ehtiramın ifadəsi olan bu sərgi Ulu Öndərin bütün həyatını dövlətçiliyimizə və xalqımıza həsr etməsindən və ölkənin gələcək inkişafının əsasını necə müdrikliklə qoymasından bəhs edir.

Sərgidə Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayğısını, gənclərlə görüşlərini əks etdirən fotolar yer alıb. Ekspozisiyanın Azərbaycan-Gürcüstan münasibətlərinə həsr edilmiş guşəsində Ulu Öndər Heydər Əliyevin Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze, həmçinin Prezident İlham Əliyevin Baş nazir İrakli Qaribaşvili ilə görüşlərindən də fotoşəkillər nümayiş olunur.

* * *

Oktyabrın 8-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Gürcüstanın Baş naziri bəyanatla çıxış edib.

### Baş nazir İrakli Qaribaşvilinin bəyanatı

- Bizim çox hörmətli qonağımız, əziz dostumuz cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, Sizi Gürcüstanda görməyə şadam. Sizi və nümayəndə heyətinizi salamlayıram, Gürcüstana səfərə gəldiyinizə görə təşəkkür edirəm. Onu da demək istəyirəm ki, biz ənənəmizi davam etdiririk, tez-tez səfərlər edirik. Bir neçə ay bundan əvvəl mən Qəbələdə səfərdə idim. Cənab Prezident, orada mənə göstərilən çox səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm. Keçən il bu vaxt da biz Sizi Gürcüstanda qəbul edirdik. Mən çox şadam ki, səfərlərimiz tez-tez həyata keçir. Əlbəttə ki, mən bir neçə aydan sonra Azərbaycana növbəti səfərə gələcəyəm.

Biz cənab Prezidentlə çox məhsuldar görüş keçirdik, müzakirələr apardıq. Cənab Əliyev ilə biz hazırkı strateji tərəfdaşlığımızı və əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Bizim ölkələrimiz arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib. Bu dostluğun və qardaşlığın möhkəmləndirilməsində onun böyük xidmətləri var.

Biz, əlbəttə ki, iqtisadi, ticari, enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biridir və ilk beşlikdə yer alıb. Bu il bizim ticarətimiz 15 faiz artmışdır. Ötən il rekord göstəricilərimiz olmuşdur. Yüklərin daşınması baxımından da həcm əhəmiyyətli dərəcədə artmışdır.

Deyə bilərəm ki, biz istənilən istiqamətdə - enerji, nəqliyyat, logistika, dəmir yolu və bütün digər sahələrdə əməkdaşlıq edirik. Biz, eyni zamanda, Orta Dəhliz layihəsinin inkişafını və perspektivlərini müzakirə etdik. Bildiyiniz kimi, biz Azərbaycanla və Qazaxıstanla əlaqələndirilmiş şəkildə fəaliyyət göstəririk ki, həmin layihə uğurla inkişaf etsin. Dəmir yolu xətti layihəsi genişləndirilir. Magistral yollar, dəniz limanları - bunlar hamısı bizim gündəliyimizdədir.

Azərbaycan Gürcüstanla birlikdə çox böyük işlərə başlayıb. Biz də dəmir yolu xətlərimizi müasirləşdiririk və gələn ilin sonuna qədər bunu başa çatdıracağıq. Bununla da yüklərin həcmini iki dəfə artıra biləcəyik. Tezliklə biz Anakliya dəniz limanının inşasına başlayacağıq. Onun da yükaşırma qabiliyyəti 100 milyon tona bərabər olacaq. Eyni zamanda, biz Şərq-Qərb avtomagistralının inşasını da başa çatdıracağıq. Biz Azərbaycanla istənilən istiqamətdə uğurla əməkdaşlıq edirik. Biz bir neçə ay ərzində növbəti tarixi layihənin genişləndirilməsini də qeyd edəcəyik. O layihə də uğurla başa çatacaqdır. Ona görə də bizim çox aydın perspektivlərimiz var. Gələcəyə baxışımız olduqca aydındır. Əminəm ki, Azərbaycanla bizim tərəfdaşlığımız və dostluğumuz uzunömürlü olacaq.

Əlbəttə ki, biz təhlükəsizlik məsələlərini - həm regionda, həm də qlobal müstəvidə cərəyan edən hadisələri müzakirə etdik. Hazırda vəziyyət kifayət qədər gərgindir.

Mən bir daha cənab Prezidentə onu da bildirdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz Azərbaycana da təşəkkürümüzü bildiririk ki, Azərbaycan da öz növbəsində hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Onu da qeyd etdik ki, bizim böyük ümidlərimiz var ki, Azərbaycan və Ermənistan sülh sazişini imzalayacaq. Bu baxımdan da bizim Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərimiz tam üst-üstə düşür. Ümidvarıq ki, bu bölgədə sülh davamlı olacaqdır və ölkələrimizin firavanlığına xidmət edəcəkdir, həm də Azərbaycan, Ermənistan və Gürcüstan xalqları üçün.

(Ardı 2-ci səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri



(Əvvəli 1-ci səhifədə)

Biz burada - Gürcüstanda hər zaman qərəzsiz mövqeyə malik olmuşuq, biz bu gün də hazırıq ki, bu məsələyə töhfə verək. Biz istəyirik ki, bu məsələdə vasitəçilik edək və istənilən dostluq formatını təqdim etməyə hazırıq. Bizim gələcəyimiz dinc, sabit olmalıdır və Cənubi Qafqazın hər üç ölkəsi regional məsələləri özləri həll etməlidir.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, cənab Prezidentin atası mərhum Prezident Heydər Əliyevin bizim dostluğumuzun inkişafında müstəsna xidmətləri və töhfəsi olub, onun təməlini o qoyubdur. Biz burada Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərgi ilə də tanış olduq. Mən fürsətdən istifadə edərək cənab Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu münasibətlə də təbrik edirəm.

Əziz dost, bir daha Sizi burada salamlayıram. Sizin ölkənizə sülh, inkişaf və uğurlar diləyirəm. Təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Baş nazir.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Tbilisi şəhərinin bu gözəl, füsunkar təbiətə malik guşəsində olmaq mənim üçün çox xoşdur və burada yaradılmış şərait də göz oxşayır. Cənab Baş nazirlə söhbət əsnasında mən qeyd etdim ki, Gürcüstanın bütün ərazisi təbiət nöqteyi-nəzərindən çox gözəldir. Ən böyük gözəllik və ən böyük sərvət isə gürcü xalqıdır.

Biz iki lider kimi ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini gücləndiririk, möhkəmləndiririk, öz səylərimizi əsirgəmirik. Cənab Baş nazir qeyd etdiyi kimi, bizim ənənəvi görüşlərimiz bu məqsədə xidmət edir ki, ölkələrimiz bir-birinə daha yaxın olsun, xalqlarımız bir-biri ilə daha da sıx dostluq etsin. Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdır, bu gün də bu, belədir. Bu, həm ölkələrimiz üçün vacibdir, eyni zamanda, bölgə üçün, o cümlədən, ilk növbədə Cənubi Qafqaz üçün çox vacib olan bir şərtdir.



Fürsətdən istifadə edərək, hörmətli cənab Baş nazir, Ulu Öndər Heydər Əliyevin xatirəsinə Gürcüstan hökuməti və xalqı tərəfindən göstərilən hörmətə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Qeyd olunduğu kimi, bu il ilboyu Azərbaycanda, bir çox ölkələrdə, o cümlədən Gürcüstanda Heydər Əliyevin 100 illiyi qeyd edilir. Bu gün burada nümayiş etdirilən sərgidə bir şəkil diqqətimizi daha çox cəlb etdi, Heydər Əliyev və Eduard Şevardnadzenin şəklidir. Onların dostluğunun çox böyük tarixçəsi var. Sovet dövründə onlar bir-birilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri kimi xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istedadı, öz cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Tale elə gətirdi ki, onlar təxminən eyni vaxtda müstəqil Gürcüstana və müstəqil Azərbaycana rəhbərlik etməyə başladılar. Xalqlarımız üçün ən ağır dövrdə, - o acı və ağrılı günləri biz xatırlayırıq, - məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa başlamışdır. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır.

Biz - onların davamçıları, bu gün onların yolu ilə gedirik. Təbii ki, bu gün Gürcüstan və Azərbaycan qat-qat daha inkişaf etmiş ölkələrdir. Ancaq çağırışlar demək olar ki, eynidir, problemlər eynidir. Cənubi Qafqazda sülh hələ ki, tam bərqərar olunmayıb və bu gün cənab Baş nazirlə söhbət əsnasında, o cümlədən bu məsələyə də toxunduq. Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb. Baş nazir qeyd etdiyi kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyümüzü, suverenliyimizi dəstəkləmişik və dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda xalqlarımızın bu və digər maraqlarını əks etdirən məsələlərdə bir-birimizi dəstəkləyirik və bir-birimizin yanındayıq. Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır.

Biz bu gün, eyni zamanda, Ermənistan-Azərbaycan normallaşma prosesinə də toxunduq. Üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir, keçən ay bütün ölkə üzrə suverenliyini bərpa etmişdir. İndi isə biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, - mən buna ümidliyəm, - o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar, mümkündür. Sadəcə olaraq biz bundan məhrum idik, ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında idi və təbii ki, bu vəziyyət normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar.



Bildiyiniz kimi, bu gün bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur. Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər.

O ki qaldı bizim digər sahələrdəki əməkdaşlığa, cənab Baş nazir artıq qeyd etdi, həm enerji, həm nəqliyyat sahəsində çox böyük planlarımız var, əlbəttə ki, böyük uğurlarımız var. Həyata keçirilmiş layihələr haqqında danışmaq, hesab edirəm ki, əbəsdir, bunu hər kəs bilir. Sadəcə olaraq onu demək istəyirəm ki, bizim birgə həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri bu gün bir çox ölkələrin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta Dəhlizin güclənməsinə xidmət göstərəcək.





(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri



(Əvvəli 2-ci səhifədə)

Energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün bizi birləşdirən "Yaşıl enerji dəhlizi" layihəsidir. Burada da biz - yenə də Gürcüstan və Azərbaycan - iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Əminəm ki, ondan sonra biz konkret işlərə start verə bilərik. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcək.

Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi layihələr böyük məna daşıyır, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün və biz buna hazırıq. Bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır.

Sözümün sonunda bir məsələni də qeyd etmək istərdim. Mən Gürcüstana tez-tez gəlirəm və hər dəfə gələndə Gürcüstanın yeni bir guşəsi ilə tanış oluram. Hər dəfə həm Gürcüstanın gözəl təbiətinə bir daha heyran oluram, eyni zamanda, Gürcüstanda gedən tərəqqi prosesinə də çox böyük maraqla baxıram və sevinirəm. Cənab Baş nazirin rəhbərliyi ilə Gürcüstan inamla inkişaf edir, Gürcüstanda ictimai-siyasi sabitlik tam bərqərar olunub. Bu sabitliyin mənbəyi Gürcüstanda yaşayan vətəndaşların hökumətə olan dəstəyidir. Bu sabitlik və hökumətin aydın gələcəyə yönəlmiş baxışları imkan verir ki, bir çox önəmli layihələr icra edilsin, imkan verir ki, həm iqtisadiyyat artsın, infrastruktur layihələri icra olunsun və insanların rifah halı ildən-ilə yaxşılaşsın. Biz Gürcüstanın dostu kimi buna ürəkdən sevinirik.

Əldə edilmiş nailiyyətlər münasibətilə Sizi, cənab Baş nazir, bizim bütün gürcü qardaşlarımızı təbrik edirik. Qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirərək, cənab Baş nazir, Sizi Azərbaycana dəvət edirəm. Təşəkkür edirəm.



* * *

Oktyabrın 8-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri oktyabrın 8-də başa çatıb.

Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Gürcüstanın Baş naziri İrakli Qaribaşvili yola salıb.

**AZƏRTAC-ın materialları əsasında**

# **Müdafiə naziri:** “Azərbaycan Ordusunun daha da gücləndirilməsi ölkəmizin prioritet məsələlərindən biri olan təhlükəsizliyin təmin edilməsində vacib amillərdən biridir”

Oktyabrın 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan ordusu qarşısında qoyduğu tapşırıqlar müdafiə naziri tərəfindən müşavirə iştirakçılarının diqqətinə çatdırılıb. Bildirilib ki, dövlət başçısının çıxışlarından irəli gələn mühüm məsələlərin icrasında ordumuzun üzərinə düşən bütün vəzifələr vaxtında yerinə yetirilməlidir.

Azərbaycan Ordusunun daha da gücləndirilməsi ölkəmizin prioritet məsələlərindən biri olan təhlükəsizliyin təmin edilməsində vacib amillərdən biri olduğu qeyd edilib.

Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti təhlil edilib. Hava hücumundan müdafiə, kəşfiyyat və əks kəşfiyyat, radioelekron mübarizə və digər bölmələrin gücləndirilməsinə dair konkret tapşırıqlar verilib.

Azərbaycan Ordusunun gələcək fəaliyyət istiqamətinə dair qarşıya qoyulan tapşırıqların dəqiqləşdirilməsi və müvafiq planların yenilənməsi ilə bağlı aidiyyəti üzrə göstərişlər verilib.

Müşavirədə, həmçinin qoşunların qarşılıqlı fəaliyyətdə keçirilən intensiv təlim və məşqlərinin keyfiyyətinin daha da artırılmasının əhəmiyyəti qeyd edilib.

Azərbaycan Ordusunda keçirilən döyüş hazırlığı tədbirlərində yüksək texnologiya və xüsusi hazırlıqlı heyətin imkanlarından səmərəli istifadə edilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin ölkəmizdə keçirilən "Xəzri-2023", "Eternity-2023" birgə təlimlərində və Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun ƏİK taboru və kəşfiyyat bölüyünün 2-ci səviyyəli yenidən qiymətləndirilməsində əldə edilən yüksək nəticələr qeyd olunub.



Qış dövrü ərzində bölmələrin döyüş hazırlığı və hərtərəfli təminatı məsələləri, eləcə də təhlükəsizlik qaydalarına əməl olunması ilə bağlı qoşun növü komandanlarına müvafiq tapşırıqlar verilib.

General-polkovnik Zakir Həsənov hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi ilə bağlı vəzifəli şəxslərə aidiyyəti üzrə göstərişlər verib.

Nazir döyüş hazırlığı və döyüş tapşırıqlarının icrasında fərqlənən hərbi qulluqçuların mükafatlandırılması, o cümlədən gənc əsgərlərin adaptasiya prosesinə və digər şəxsi heyətə həssaslıqla yanaşılmasının əhəmiyyətini qeyd edib.

Müdafiə naziri Qarabağ bölgəsində döyüş texnikası, silah-sursat, xüsusilə mina və əldəqayırma partladıcı vasitələrin müsadirə edilməsi, o cümlədən ərazilərin minalardan təmizlənməsi zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasına dair tapşırıqlar verib.

Sonda hərbi qulluqçuların, onların ailə üzvlərinin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması və qayğılarının həlli istiqamətində görülən tədbirlərlə bağlı məruzələr dinlənilib, ətraflı müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter zərərsizləşdirilib

Oktyabrın 8-i saat 12:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Kəlbəcər rayonu Qılınclı dağı istiqamətində yerləşən bölmələrinin müdafiə mövqeləri üzərində kəşfiyyat xarakterli uçuş həyata keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bölmələrimiz tərəfindən aşkar olunan kvadrokopter xüsusi texniki vasitələrlə zərərsizləşdirilib.

## ANAMA: Azad edilmiş ərazilərdə tank əleyhinə daha 67 mina aşkarlanıb

Oktyabrın 2-dən 8-dək Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə 426.5 hektar ərazini mina və partlamamış hərbi sursatlardan təmizləyib.

AZƏRTAC xəbər verir ki, bu barədə ANAMA tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumatda bildirilir.

Məlumata əsasən, Tərtər, Ağdam, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında icra olunan əməliyyatlar nəticəsində ümumilikdə 31 piyada əleyhinə, 67 tank əleyhinə mina, 1267 partlamamış hərbi sursat aşkarlanıb.

## Azərbaycan nümayəndə heyəti NATO PA-nın illik sessiyası çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycan Respublikası Milli Məclisinin NATO Parlament Assambleyasındakı (PA) nümayəndə heyəti və ölkəmizin NATO yanında nümayəndəliyinin üzvləri oktyabrın 6-9-da Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirilən NATO PA-nın 69-cu illik sessiyasında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, sessiya çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Türkiyə, Norveç, Serbiya, Danimarka, Portuqaliya, İspaniya və digər ölkələrin NATO PA-dakı nümayəndə heyətləri ilə görüşlər keçirib.

Görüşlər zamanı parlamentlərarası əlaqələr, regionda baş verən son hadisələr və Avropanın enerji təhlükəsizliyinə dair müzakirələr keçirilib, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Qazaxıstan müdafiə nazirləri "Xəzri-2023" birgə taktiki təliminin növbəti mərhələsini izləyiblər



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Qazaxıstan Respublikasının müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkov və digər vəzifəli şəxslər "Xəzri-2023" birgə taktiki təliminin növbəti mərhələsini izləyiblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə təlimin gedişatı ilə bağlı müdafiə nazirlərinə məruzə edilib.

İki mərhələdə keçirilən birgə təlimin növbəti epizodlarında Azərbaycan və Qazaxıstanın dəniz piyadaları və xüsusi təyinatlıları digər qoşun növləri ilə qarşılıqlı əlaqədə qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Müdafiə nazirləri ümumilikdə təlimin gedişatını və hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndiriblər.



Sonda təlimdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, "Xəzri-2023" birgə taktiki təlimində İran İslam Respublikasının HDQ-nin nümayəndə heyəti müşahidəçi qismində işirak edib.







# "Azərbaycan və Qazaxıstan xalqlarının dostluğu, qardaşlığı əbədidir" adlı vətənpərvərlik tədbiri keçirilib

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin klubunda Azərbaycan və Qazaxıstan respublikaları Hərbi Dəniz Qüvvələrinin "Xəzri-2023" birgə taktiki təliminin başa çatması münasibətilə hər iki ölkənin hərbi dənizçiləri üçün "Azərbaycan və Qazaxıstan xalqlarının dostluğu, qardaşlığı əbədidir" adlı vətənpərvərlik tədbiri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan və Qazaxıstan respublikalarının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himnləri səsləndirilib.







Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov Müdafiə Nazirliyinin rəhbərliyi və Hərbi Dəniz Qüvvələrinin komandanlığı adından birgə taktiki təlimi uğurla başa vuran hərbi dənizçiləri salamlayaraq, onlara bundan sonrakı xidmətlərində müvəffəqiyyətlər arzulayıb.



Tədbirin layihə müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani qazax və Azərbaycan xalqlarının tarixi dostluğundan, qardaşlığından söhbət açaraq ənənələrin bu gün də davam etdirildiyini, ordularımızın əlaqələrinin geniş vüsət aldığını nəzərə çatdırıb.

Tədbirin aparıcıları Rüstəm Əliyev və Yeganə Dünyamalıyeva Azərbaycan və qazax xalqlarının dostluğunu tərənnüm edən hər iki xalqın şairlərinin şeirlərindən ibarət poeziya çələngi təqdim ediblər.

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin birgə taktiki təlimlərə həsr etdiyi videoçarx nümayiş etdirilib.

Əməkdar artistlər Cahangir Qurbanovun, Nuriyyə Hüseynovanın və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin çıxışları alqışlarla qarşılanıb. Hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin komandanlıqları adından bədii proqram iştirakçılarına hədiyyələr təqdim olunub.

# "Xəzri-2023" birgə taktiki təlimi başa çatıb



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Qazaxıstan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçirilən "Xəzri-2023" birgə taktiki təlimi başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 8-də Azərbaycan HDQ komandanı vitse-admiral Sübhan Bəkirov, Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin HDQ komandanı kontr-admiral Saken Bekjanov, hər iki ölkənin təlimdə iştirak edən hərbi qulluqçuları və media nümayəndələrinin iştirakı ilə təntənəli bağlanış mərasimi keçirilib.

Tədbirdə çıxış edənlər təlimdə qarşıya qoyulan bütün tapşırıqların uğurla icra edildiyini bildirib və iştirakçılara gələcək xidmətlərində uğurlar arzulayıblar. Qeyd edilib ki, keçirilən birgə taktiki təlim qarşılıqlı təcrübə mübadiləsində, eləcə də hər iki ölkənin hərbi qulluqçularının peşəkarlığının artırılmasında xüsusi əhəmiyyətə malikdir.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında oktyabrın 2-dən başlayan "Xəzri-2023" birgə taktiki təlimində İran İslam Respublikasının HDQ-nin nümayəndə heyəti də müşahidəçi qismində iştirak edib.



# Bakıda keçirilən "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi başa çatıb







*Azərbaycan, Türkiyə və Gürcüstanın hərbi qulluqçularının iştirakı ilə Bakıda keçirilən "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hər üç ölkənin hərbi qulluqçularının və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin cəlb olunması ilə keçirilən təlimdə strateji əhəmiyyətli, eləcə də regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqlar icra edilib.

Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində təlimin başa çatması münasibətilə tədbir keçirilib.

Tədbirdə qeyd edilib ki, təlimin keçirilməsində əsas diqqət Azərbaycan, Türkiyə və Gürcüstanın silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsinə yönəldilib. "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimində qarşıya qoyulmuş bütün tapşırıqların uğurla yerinə yetirildiyi diqqətə çatdırılıb.



Sonda qarşılıqlı hədiyyələr təqdim edilib və birgə xatirə şəkli çəkdirilib.

# Qarabağ 1500 illik tarixi olan türk torpağıdır

VI əsrdən etibarən Qarabağda Xəzərlər, Səlcuqlar, Eldənizlər, Elxanilər, Qaraqoyunlular, Teymurilər, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və Azərbaycan türkləri hakimiyyətdə olub. XIX əsrdə ruslar erməniləri bölgəyə yerləşdirənə qədər Qarabağda, demək olar ki, bir nəfər də erməni olmayıb - bölgə tamamilə türk yurdu idi.

Tarixçi Bartxolda görə, "Qarabağ" adı türkcə "qara" (sıx, bol-bərəkətli) və farsca "bağ" (sıx bağ, bağlıq yer) sözlərinin birləşməsindən əmələ gəlib. "Qara" həm də böyük fikrini bildirir - Qarayazı, Qaradaş... Yəni, böyük bağları olan yer, ərazi, məkan.

VI əsrdə Xəzərlərin bölgəyə gəlişi ilə Qarabağ türk tarixində öz yerini tutmağa başladı. XI əsrdə Böyük Səlcuqların tərkibinə daxil oldu. Qacar, Qaramanlı, Otuziki, İyirmidörd, Baharlı tayfaları daxil olmaqla, bölgədə türkmənlər də məskunlaşdılar. Bölgə tamamilə türk yurduna çevrildi. Qarabağ haqqında Mustafa Aydın, Hüsaməddin Məmmədov, Gülşen Seyhan Alışık, Zabil Bayramlı və Bilal Bayramlının araşdırmaları vardır.

Sultan Alparslan Gürcüstan səfərindən qayıdarkən Qarabağdan qışlaq kimi istifadə edirdi. Böyük Səlcuqlardan sonra bölgədə İraq Səlcuqları, Eldənizlər, Elxanilər, Qaraqoyunlular, Teymurilər, Ağqoyunlular və Səfəvilər hakimiyyətdə olmuşdular.

1578-ci ildə Osmanlı-Səfəvi müharibələri zamanı Qarabağ Osmanlı ərazisi oldu. Qarabağ Osmanlı tabeliyində olarkən Gəncə vilayətinin tərkibində idi və "Vilayət-i Gəncə Qarabağ" adlandırılırdı. Səfəvilər 1603-cü ildə bölgəni yenidən ələ keçirdi və XVIII əsrə qədər tabeliyində saxladı. 1722-1724-cü illərdə rusların cənuba doğru irəliləməsi nəticəsində Osmanlılar hərəkətə keçərək Azərbaycanı ələ keçirdilər. 1724-cü ildə bağlanmış müqavilə ilə Qarabağ Osmanlı ərazisində qaldı. Lakin 1736-cı ildə bağlanan müqavilə ilə yenidən İrana verildi.

## Qarabağ xanlığının yaranması

Qarabağı Osmanlılardan geri alan Nadir şah ona itaət etməyən Cavanşir tayfasının başçısı Pənahəlini Xorasana sürgün etmişdi, Nadir şahın ölümündən (1747) sonra Pənahəli xan Qarabağa qayıdaraq, Qarabağ xanlığının əsasını qoymuşdur. Pənahəli xan Türküstandan gələn Cavanşir tayfasının Bəhmənli qoluna mənsub Sarıcalı tayfasındandır idi.

Pənahəli xan 1748-1750-ci illərdə Bayat, Şahbulaq, Əsgəran və Şuşa (Pənahabad) qalalarını tikdirmişdir. 1755-ci ildə Şuşaya hücum edən Avşar Fətəli xana məğlub olan Pənahəli xan ona tabe oldu. Daha sonra Kərim xan Zəndlə birlikdə hərəkət edərək Fətəli xanı məğlub etdi. Lakin qüdrətli bir xanlığı qoyub getmək istəməyən Kərim xan Pənahəli xanı oğlu İbrahimlə birlikdə Şiraza apardı. 1759-cu ildə Şirazda atasının ölümündən sonra Qarabağa qayıdan İbrahim qardaşı ilə apardığı mübarizədə uğur qazandı və 1763-cü ildə Qarabağ xanlığının başçısı oldu.

Ruslar XVIII əsrin son rübündə Qafqazı işğal etməyə başladılar. 1783-cü ildə Gürcüstanı ələ keçirdilər. I Aleksandrın dövründə ruslar 1802-ci ildə Bakı və Qarabağın onlara tabe olmasını istəsələr də, buna nail ola bilmədilər. Bunun əvəzinə, 1804-cü ildə Gəncəni işğal etdilər. 1805-ci ilin mayında Kürəkçayda imzalanan müqavilə ilə İbrahimxan ruslara tabe oldu.

1806-cı ilin fevralında general Sisyanovun Bakıda öldürülməsindən sonra İbrahim xan rusları Qarabağdan qovmağı planlaşdırsa da, ruslar bundan xəbər tutaraq, 1806-cı il iyunun 10-da onu ailəsi ilə birlikdə öldürdülər. İran-Rusiya müharibələrindən (1804-1813) sonra bağlanan Gülüstan müqaviləsi ilə Qarabağ rusların tabeliyinə keçdi və 1822-ci ildə xanlıq ləğv edildi. Qarabağ xanlığının mövcudluğu bölgənin çiçəklənməsinə öz təsirini göstərmişdi. Xanlıq torpaqlarını qalalar, məscidlər, imarətlər bəzəyirdi. Xanlıqlar dövrünə qədər Qarabağın etnik quruluşunu araşdıran Qeybullayevə görə, Qarabağın yalnız bir neçə kəndində ermənilər yaşamış, Nadir şahın dövründə isə kənardan gətirilən ermənilər albanlara rəhbərlik etmişdilər.



## Ermənilərin ruslar tərəfindən yerləşdirilməsi

Rusların məlumatına görə, 1810-cu ildə bölgədə 25 min nəfər yaşayırdı. Rusların 1823-cü ildə verdikləri rəqəm 90 min idi və bunun üçdəbir hissəsinin ermənilər olması göstərilirdi. Ruslar 1806-1812-ci illər Osmanlı-Rusiya və 1804-1813-cü illər Rusiya-İran müharibələri zamanı bölgəyə çox sayda erməni yerləşdirmişdilər. 1828-ci ildə İranla Rusiya arasında bağlanmış Türkmənçay müqaviləsinə əsasən, Azərbaycan iki yerə bölündü: ölkənin şimalı Rusiyada, cənubu İranda qaldı. Müqavilənin 15-ci maddəsi İranda yaşayan ermənilərin Rusiya tərəfindən Qarabağ ərazisinə yerləşdirilməsinə icazə verirdi. 1828-1830-cu illərdə Azərbaycana 40 min İran və 84 min Osmanlı ermənisi yerləşdirildi. Bu rəqəm XIX əsrin sonunda 1 milyona çatacaqdı.

Birinci Dünya müharibəsinin sonlarına doğru Qarabağ üçün çətin dövrlər başladı. 1917-ci il bolşevik inqilabından sonra ermənilər Qarabağ üzərində haqq tələb etməyə başladılar. Ruslardan qalan silah-sursatları ələ keçirən ermənilərə qarşı müdafiəsiz qalan Azərbaycan türkləri Osmanlıdan kömək istədi. Bundan sonra Ənvər paşanın əmri ilə Qafqaz İslam Ordusu quruldu. Nuri paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu erməni quldur dəstələrini darmadağın edərək, Bakıya doğru irəlilədi. 21 iyul 1918-ci ildə Şamaxı ələ keçirildi.

Şərq Orduları Qrupu komandiri Xəlil paşa və əməliyyata rəhbərlik edən Nuri paşa sentyabrın 15-də Bakıya daxil oldular. 1918-ci il oktyabrın 6-da Dərbənd azad edildi. Cəmil Cahid bəyin komandanlığı ilə 9-cu və 106-cı Qafqaz alayları Qarabağa göndərildi. Nuri paşanın komandanlığı altında Qafqaz İslam Ordusu 1918-ci il oktyabrın 8-də Şuşaya qədər üstünlük əldə etdi. Qarabağın tam süqutu yaxınlaşdığı bir vaxtda - 1918-ci il oktyabrın 30-da Mudros sülh müqaviləsi imzalandı. Ateşkəsin 11-ci və 15-ci maddələrinə əsasən, türk qoşunları Qafqazdan tamamilə çəkiləcək və Osmanlı hökuməti Bakının işğalına etiraz etməyəcəkdi. İngilislər tərəfindən ələ keçirilən Qarabağ 1919-cu ildə Azərbaycanın tərkibinə daxil edildi. Lakin 1920-ci ildə ruslar tərəfindən yenidən işğal edildi.

## Azərbaycanın Böyük Qələbəsi

Sovet siyasətçisi Anastas Mikoyan Leninə etdiyi 20 may 1920-ci il tarixli məruzəsində ermənilərin Qarabağla heç bir əlaqəsinin olmadığını və buranın Azərbaycandan ayrılmamalı olduğunu bildirirdi. 1923-cü il iyulun 24-də Dağlıq Qarabağ Muxtar Vilayət elan edildi. Azərbaycanın idarəçiliyində yaradılan bölgəyə Cavanşir, Şuşa, Cəbrayıl, Zəngəzur və Qubadlının bir hissəsi daxil idi. 1970-ci illərin sonlarına doğru ermənilərin Qarabağdakı fəaliyyəti getdikcə genişlənməyə başladı. Azərbaycan hökuməti isə Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bəyan etdi.

1987-ci ilin son aylarında Qarabağda yaşayan azərbaycanlılar ermənilər tərəfindən köç etməyə məcbur edildi. Ermənilər 1988-ci il fevralın 21-də Qarabağın Ermənistana məxsus olduğunu bəyan etdilər və həmin ayın 24-dən başlayaraq bu bölgədəki türklərə təzyiq göstərdilər. Həmin ilin iyununda Ermənistan SSR Azərbaycan Ali Sovetinə Dağlıq Qarabağla bağlı müraciət etdi, lakin bu təklif rədd olundu. Bu təklifi Moskva da qəbul etmədi. Ermənilər 1989-cu ildə Qarabağa gedən yolları kəsərək minaladılar, nəzarəti ələ keçirməyə başladılar. 1990-cı ildə Azərbaycan Xalq Cəbhəsi Milli Müdafiə Komitəsi quruldu, SSRİ Ali Sovetin Rəyasət Heyəti Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiq etdi. Lakin sovet ittifaqı dağıldıqdan sonra ermənilər rusların dəstəyi ilə müxtəlif illərdə, o cümlədən Xocalıda qətliam törətdilər. 1992-ci ildə Şuşanı işğal etdilər. Qarabağ və onun ətrafında yaşayan azərbaycanlıların əksəriyyəti qaçqın düşdü, minlərlə azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi.

2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Türkiyənin də dəstəklədiyi 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu böyük şücaət və qəhrəmanlıq göstərərək, Qarabağın və digər Azərbaycan torpaqlarının mühüm hissəsini işğaldan azad etdilər.

2023-cü il sentyabrın 19-da başlayan lokal xarakterli antiterror tədbirlərində Azərbaycan Qarabağdakı terrorçuları 24 saatdan da az müddətdə məğlub etdi. Qarabağ Azərbaycanın idi, Azərbaycanın da oldu!

**Qeyd**: *Dərc olunan məqalənin mətninin bütün hüquqları Turkuvaz Media Qrupuna məxsusdur. Mənbəyə istinad edilsə və ya mətnə keçid üçün aktiv link verilsə belə, mətnin tam və ya bir hissəsindən istifadə etmək qadağandır.*

**Erhan AFYONCU**
**Türkiyə Silahlı Qüvvələrinin Milli Müdafiə Universitetinin rektoru, professor**

# Hərbi Prokurorluqda geniş kollegiya iclası keçirilib

*Hərbi Prokurorluqda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə 2023-cü ilin birinci yarımilində Respublikanın Hərbi Prokurorluq orqanlarında qeydə alınmış qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və özünü öldürmə həddinə çatdırma cinayətləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin vəziyyətinin, cinayət hadisələrinin baş verməsinin səbəb və şəraitinin, həmin cinayətlər üzrə istintaq təcrübəsi və məhkəmə nəticələrinin ümumiləşdirilməsinin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.*





Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Əvvəlcə kollegiya iştirakçıları Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, qazilərə şəfa diləyiblər.

Kollegiya iclasını açıq elan edən Baş prokurorun müavini - hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının hərtərəfli yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Hərbi prokuror Xanlar Vəliyev, həmçinin vurğulayıb ki, Prezidentin ölkəyə rəhbərlik etdiyi 20 ildə qazanılmış misli görünməmiş uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti də mühüm əhəmiyyət kəsb etməkdədir.

Bundan sonra, məruzəçilər - Hərbi Prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi, ədliyyə polkovniki Hümmət Məmmədov və İstintaq idarəsinin rəis müavini, ədliyyə müşaviri Rüstəm Ələsgərov kollegiya iclasının həsr olunduğu məsələlər barədə çıxış edərək, bununla bağlı hesabat dövründə görülmüş işlərdən danışıb, ötən hesabat dövrü ərzində Hərbi Prokurorluq orqanlarında qeydə alınmış cinayətlərin qarşısının alınması ilə əlaqədar hərbi prokurorluq orqanlarının və aidiyyəti qurumların qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görülməli olan tədbirlər barədə məlumat veriblər. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, şəxsi heyəti peşəkar hərbi qulluqçularla komplektləşdirilib, hərbçilərin nəzəri bilik və peşə, həmçinin mənəvi-psixoloji hazırlıq səviyyəsi artırılıb, qeyd olunanlar hərbi intizamın və qanunçuluğun daha da möhkəmlənməsini şərtləndirib.

Sonra hərbi prokuror Xanlar Vəliyev kollegiya iclasının həsr olunduğu cinayətlərin istintaq və məhkəmə təcrübəsinin ildə iki dəfə ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilməklə, kollegiyaların qərarlarına əsasən, həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair aidiyyəti qurumların rəhbərlərinə məlumat məktubları, komandanlıqlara təqdimatlar, ərazi hərbi prokurorlarına icmal məktublar göndərilməsinin, həmçinin hər ilin əvvəlində tərtib edilmiş birgə tədbirlər planlarına əsasən hərbi intizamın, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizədə birlikdə görülən digər işlərin cinayətlərin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınmasındakı xüsusi rolunu qeyd edərək, qarşılıqlı səmərəli fəaliyyətə görə adları çəkilən qurumların rəhbərlərinə öz təşəkkürünü bildirib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev xüsusi vurğulayıb ki, bütün bunların nəticəsində 2022-ci ilin birinci yarımili ilə müqayisədə 2023-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 20 faiz, qəsdən adam öldürməyə cəhd cinayətləri 66,7 faiz, özünü öldürməyə cəhd hadisələri isə 75 faiz azalıb.

Kollegiya iclasına yekun vuran hərbi prokuror Xanlar Vəliyev bildirib ki, cinayət hadisələrinin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində Hərbi Prokurorluğun aidiyyəti qurumlarla birgə fəaliyyəti bundan sonra da uğurla davam etdiriləcək.

# Milli Müdafiə Universitetinin nümayəndə heyəti tələbələrlə görüşüb





Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, onlara dövlətçiliyə sədaqət hisslərinin təlqin edilməsi məqsədilə Milli Müdafiə Universitetinin (MMU) nümayəndə heyəti Azərbaycan Texniki Universitetində (AzTU) tələbələrlə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

AzTU-nun professor-müəllim heyətinin də iştirak etdiyi görüşdə ölkəmizdə gənc nəslin milli köklərimizə, mənəvi dəyərlərimizə, tarixdən gələn ənənələrimizə bağlılıq, Vətənə sevgi, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması istiqamətində müxtəlif sahələrdə atılan addımlardan danışılıb. Qeyd olunub ki, Vətən müharibəsi, eləcə də digər uğurlu əməliyyatlarda qələbənin qazanılmasını təmin edən mühüm amillərdən biri də gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılmasıdır.

Görüş zamanı, həmçinin elm və təhsil sahəsində əməkdaşlıq haqqında bir sıra müzakirələr aparılıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Rusiya Xəzər flotiliyasının gəmiləri Bakıya dostluq səfəri ediblər





Oktyabrın 10-da Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının iki hərbi gəmisi qeyri-rəsmi dostluq səfəri ilə Bakıya gəlib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, gəmi heyətləri Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin nümayəndələri tərəfindən qarşılanıb.

Səfər çərçivəsində, gəmi heyətlərinin mədəni və tarixi abidələrlə tanışlıq üçün Bakı şəhərində gəzintisi, o cümlədən idman yarışı üzrə yoldaşlıq görüşünün keçirilməsi planlaşdırılıb.

# Azərbaycan əsgərinin yazdığı növbəti möhtəşəm qələbə

*Azərbaycan əsgəri 44 günlük haqq savaşı ilə tarixə həkk etdiyi qəhrəmanlıq salnaməsini növbəti illərdə keçirdiyi uğurlu əməliyyatlarla davam etdirdi. 2023-cü ilin sentyabrında keçirilən əməliyyatlar qalib ordumuzun döyüşərək əldə etdiyi növbəti uğur oldu. İgid Azərbaycan əsgəri 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatın icrasız qalmış bəndlərini qısa vaxt ərzində icra etməyi bacardı. Əməliyyatlar düşmən üçün elə sarsıdıcı oldu ki, bir gündən də az müddətdə onlar qısa vaxt ərzində ağ bayraq qaldırmağa məcbur oldular. Xocalı, Xocavənd, Xankəndi və digər əzəli, əbədi torpaqlarımız erməni silahlı birləşmələrinin qalıqlarından təmizləndi. Torpaqlarımızın azadlığı uğrunda keçirilən bütün əməliyyatlarda canından keçən və sağlamlığını itirən oğullarımızı da unutmamalı, onların əziz xatirəsini daim uca tutmalıyıq. Yüksək Vətən sevgisi və döyüş ruhuna malik Azərbaycan əsgəri qazandığı qələbələrlə xalqın və Ali Baş Komandanın ona olan inamını hər zaman doğruldub, bundan sonra da doğruldacaq. Əməliyyatlarda iştirak edən "N" hərbi hissəsinin hərbi qulluqçularını tanımaq və oxucularımıza tanıtmaq məqsədilə onların fikirlərini qələmə aldıq.*



**Əsgər Murad Abbasov:**

- Sentyabrın 19-u ərazimizdə qanunsuz məskunlaşmış erməni silahlı birləşmələrinin son zamanlar təxribatlara əl atması, məkrli niyyətlərinin sayını artırması düşmənə baha-başa gəldi. Komandanlıq tərəfindən düşmənə qarşı adekvat tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar aldıq. İlk döyüş tapşırığını alanda sevindim, müqəddəs amal uğrunda döyüşlərə girəcəyimə görə qürurlandım. Müzəffər Ali Baş Komandanın qətiyyətindən və xalqımızın sonsuz etimadından aldığımız güc ilə komandirlərimizin rəhbərliyi altında düşmənə sarsıdıcı zərbələr vurduq. Tarixi torpaqlarımızda məskunlaşan silahlı birləşmələrin tərk-silah edilməsində təcrübəli komandirlərimizlə çiyin-çiyinə döyüşdük. Qələbə qazandıq. Hər birimiz qürurluyuq, fəxarət hissi keçiririk. Mən və əsgər yoldaşlarım fəxr edirik ki, Azərbaycan Ordusunun uğurla icra etdiyi əməliyyatın iştirakçısıyıq. Bu qələbə ilə Ali Baş Komandanımızın qarşıya qoyduğu tapşırıq uğurla icra edildi. Ordumuzun qısa vaxt ərzində düşmənə kəsərli cavab verməsi nəticəsində bu gün düşmənin qanunsuz məskunlaşdığı tarixi ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır.





**Əsgər İbrahim Hüseynzadə:**

- Azərbaycan qədim zamanlardan igidlər məskəni olub. Vətən uğrunda son damla qanına qədər vuruşan ata-babalarımız bu torpaqları bizə əmanət ediblər. Separatçı qüvvələr tarixi ərazilərimizi işğal etmiş, xalqımızı öz torpağından didərgin salmışdılar. Erməni təcavüzü nəticəsində doğma evlərindən məcburi didərgin düşən həmyerlilərimizin üzlərindəki kədəri gördüyüm andan düşmənə qarşı nifrətim alovlanıb. Azğın düşmən öz yurdundan sürgün edilmiş əliyalın soydaşlarımıza qarşı heç bir insanlığa sığmayan vəhşiliklər törədiblər. 30 ilə yaxın müddətdə xalqımız vəələlxüsus da, məcburi köçkünlərimiz ata-baba yurdunun azad olunacağı günün həsrəti ilə yaşayıblar. Və bu gün hər bir soydaşımız arzusunda olduğu günü qürurla yaşayır. Qısa vaxt ərzində güclü ordumuz böyük uğura imza atdı. Şəhidlərimiz, qazilərimiz bu günləri hər birimizə yaşatdılar. Onlar da müqəddəs amal uğrunda döyüşlərə atıldılar. Bizim hərbi hissədən də şəhid olan və yaralananlar oldu. Onların hər biri təkcə bizim üçün yox, bütün xalqımız üçün əzizdir, dəyərlidir.

**Əsgər Balakərim Kərimli:**

- Sentyabrın 19-da düşmənə qarşı keçirilən əməliyyat tədbirləri qısamüddətli və uğurlu keçirildi. Bu təqvim də şanlı tariximizə qızıl hərflərlə həkk olunan səhifələrdən oldu. Əməliyyatlar zamanı komandirlərimiz də, bizlər də böyük ruh yüksəkliyi ilə müqəddəs amal uğrunda döyüşlərə atıldıq. Yaşından, rütbəsindən və vəzifəsindən asılı olmayaraq çiyin-çiyinə döyüşərək düşməni darmadağın etdik. Bu şanlı tarixin iştirakçısı olmaq ömrümün ən unudulmaz anları oldu. Son döyüş bir daha sübut etdi ki, Azərbaycan əsgərinin qələbəyə inam hissi qarşısında heç bir düşmən tab gətirə bilməz. Bütün dünya bir daha gördü ki, Azərbaycan əsgəri xalqın ümid yeri, Azərbaycan xalqı əsgərin ilham mənbəyidir.



**Əsgər Cavid Dəmirov:**

- Sonuncu əməliyyatlar bir daha Vətən sevgisi yüksək olan Azərbaycan əsgərinin gücünü bütün dünyaya nümayiş etdirdi. Amalımız qanunsuz silahlı birləşmələrin terrorçu kimi yuva saldığı tarixi ərazilərimizdə onları məğlub edib, təslim olmağa məcbur etmək idi. Düşmən anladı ki, bizi haqq yolundan heç kim və



heç nə döndərə bilməz. Azərbaycan əsgəri düşmənin layiq olduğu cavabı konkret addımlarla və qısa vaxtda verdi. Bu gün ədalət bərpa olunub. Ordumuzun gücü, Ali Baş Komandanımızın qətiyyəti və xalqımızın inamı ilə növbəti qələbə qazanıldı.

**Əsgər Qəzənfər Qəhrəmanov:**

- Qısa vaxt ərzində ordumuzun müasir silah və texnikaları ilə düşmənin postları və digər hərbi təyinatlı obyektləri darmadağın edildi. Döyüş tapşırığını aldığımız zaman hər birimiz irəli getməyə, erməniləri tarixi ərazilərimizdən çıxartmağa can atırdıq. Belə də oldu, qələbə bizimləydi. Haqq mübarizəsində qalib gəldik. O anları heç bir zaman unutmayacağam. Bu haqq mübarizəmiz bir daha sübut etdi ki, Azərbaycan əsgəri yüksək döyüş hazırlığına, vətənpərvərlik hissinə malikdir. Ordumuz Ali Baş Komandanın rəhbərliyi altında ərazi bütövlüyümüzü tam təmin etməyi bacarıb. Bu gün bir zamanlar işğalda olan ərazilərimizdə üçrəngli, aylı-ulduzlu bayrağımız dalğalanır. Dalğalanan bayrağımız şəhidlərimizin qisasının, xalqımızın qələbəsinin göstəricisidir. Vətənə sədaqət, xalqa məhəbbət, düşmənə nifrət devizini özümüzün xidmət amalına çevirmişik, hərbi xidmətimizi şərəflə davam etdiririk. Xalqımız ən şərəfli, ordumuz ən şanlı dövrünü yaşayır. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında qələbə və uğurlarımız davamlı olacaq.

**Əsgər Vüsal Şahməmmədli:**

- Erməni rəhbərliyinin 2020-ci ilin noyabrında imzaladığı kapitulyasiya aktı zamanı tarixi ərazilərimizdə yerləşmiş qanunsuz silahlı birləşmələrin oradan çıxarılması və tərk-silah edilməsi şərtlərini icra etməsi, düşmənin tez-tez təxribatlara əl atması və iki tərəf arasında qanlı toqquşmaların baş verməsi müxtəlif miqyaslı əməliyyatlara səbəb olurdu. Sentyabrın 19-u baş verən təxribat düşmənin və separatçı qüvvələrin artıq yerli-dibli yox olmasını şərtləndirirdi ki, belə də oldu. Qısa vaxt ərzində düşmənin qanunsuz silahlı birləşmələrinin yerləşdiyi döyüş mövqeləri, o cümlədən müxtəlif hərbi



təyinatlı obyektləri Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. Müasir arsenalımız və yüksək döyüş ruhumuz sayəsində tarixi ərazilərimizi qısa vaxt kəsiyində qanunsuz silahlı qüvvələrdən təmizlədik. Bu gün Qarabağda və digər əzəli və əbədi ərazilərimizdə dalğalanan üçrəngli şanlı bayrağımızı görürəm və sevincim, qürurum dünyalara sığmır. Yaşasın Azərbaycan!

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə ordusu bir həftədə Suriya və İraqda 150 terrorçunu zərərsizləşdirib



Türkiyə Silahlı Qüvvələri oktyabrın ilk həftəsində Suriya və İraqda 150 terrorçunu zərərsizləşdirib.

TRT telekanalı bu barədə Türkiyənin müdafiə naziri Yaşar Gülərə istinadla məlumat yayıb.

"Oktyabrın 1-dən 8-dək Türkiyə Hərbi Hava Qüvvələrinin İraqın və Suriyanın şimalında PKK-PYD qruplaşmalarına qarşı apardığı əməliyyatların gedişində 150-dən çox terrorçu zərərsizləşdirilib, terror təşkilatlarının obyektləri və gəlir mənbələri sıradan çıxarılıb", - deyə məlumatda bildirilir.

### NATO yaxın vaxtlarda Ukraynaya F-16 qırıcıları verəcək



NATO-ya üzv bir neçə ölkə Ukraynaya F-16 qırıcılarının yaxın zamanlarda tədarük olunacağını elan edib.

Bu barədə NATO Baş katibinin müavini Mirça Coane alyansın Parlament Assambleyasının sessiyasında çıxışı zamanı deyib.

"NATO ölkələri Ukraynaya on milyard dollardan çox silah-sursat tədarük edib. Bu yaxınlarda Kiyevə F-16 təyyarələrinin də tədarükü başlayacaq", - deyə Mirça Coane bildirib.

### NATO ölkələri 2,4 milyard dollarlıq hərbi təyinatlı müqavilələr imzalayıb



Şimali Atlantika Alyansına üzv ölkələr hərbi sənaye müəssisələri ilə yeni sursatların istehsalı üzrə 2,4 milyard dollarlıq müqavilələr imzalayıb.

Bu barədə NATO Baş katibinin müavini Mirça Coane alyansın Parlament Assambleyasının sessiyasında çıxışı zamanı deyib.

"NATO ölkələri yeni sursatların alınması üçün 2,4 milyard dollarlıq müqavilələr imzalayıb. Həmin sursatın bir hissəsi Ukrayna üçün nəzərdə tutulub", - deyə Mirça Coane bildirib.

### ABŞ Yaxın Şərqə F-35 və F-15 qırıcıları göndərəcək



ABŞ Qəzza zolağı ətrafında gərginliyin hökm sürdüyü bir vaxtda Yaxın Şərqə əlavə 20-25 F-35 və F-15 qırıcıları göndərəcək.

Bu barədə CNN telekanalı məlumat yayıb.

Qeyd edilib ki, qırıcıların göndərilməsində məqsəd İsrail sərhədlərindən kənarda hərbi əməliyyatların artmasının qarşısını almaqdır.

Müdafiə naziri Lloyd Austin bölgədə ABŞ aviasiyasını gücləndirmək planlarını açıqlayıb, lakin o, Yaxın Şərqə neçə təyyarənin göndəriləcəyini dəqiqləşdirməyib.

### İsrail ordusu HƏMAS yaraqlılarının olduğu 1707 hədəfi məhv edib



İsrail ordusu Qəzza zolağında HƏMAS yaraqlılarının olduğu 1707 hədəfi məhv edib.

Bu barədə İsrailin "Kan" dövlət televiziya və radio şirkəti məlumat yayıb.

Bildirilib ki, İsrail hərbçiləri 475 raket buraxılış qurğusunu, 73 hərbi obyekti, 24 strateji hərbi strukturu və 22 yeraltı obyekti vurub.

Hərbi hədəflər və tunellər hava və dənizdən endirilən zərbələrlə məhv edilib.

Qeyd edək ki, oktyabrın 7-də HƏMAS radikal təşkilatı silahlılarının Qəzza zolağından İsrailə hücumu nəticəsində 900-dən çox insan həlak olub. Ölkədə "müharibə vəziyyəti" elan edilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhid Elvin Babayevin xatirəsi anıldı





Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr edilmiş "Şəhidlər ölməz, Vətən bölünməz" adlı silsilə tədbirlər davam etməkdədir. Bu günlərdə şəhid Elvin Ənvər oğlu Babayevin şəhadətə qovuşmasının 3-cü ildönümünə həsr edilmiş anım mərasimi keçirildi. Tədbirdə şəhidin ailə üzvləri, dostları, oxuduğu orta məktəbin müəllim və şagird kollektivi, döyüşçülər və başqa qonaqlar iştirak edirdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəhid Elvin Babayevin həyatı və döyüş yolunu əks etdirən video materiallardan və fotolardan ibarət qısametrajlı film təqdim olundu.

Şəhid anası Kəmalə xanım oğlu Elvin haqqında xatirələrini bölüşərək dedi ki, o, kiçik yaşlarından qorxubilməz uşaq idi. İdmana daha çox maraq göstərirdi. Oxuduğu orta məktəbdə "Şahin" və "Cəsurlar" hərbi idman oyunlarında komandanın kapitanı olub. Məzun olduqdan sonra hərbçi olmaq arzusu ilə Sərhəd Qoşunlarının ali hərbi məktəbinə sənədlərini verdi, lakin arzu etdiyi təhsil ocağına qəbul ola bilmədi. Qəribəsi o idi ki, buna görə heç bir narahatlıq hiss etdirmədi. Bəlkə də başqa planları olduğu üçün təəssüf hissi keçirmədi. O planların nədən ibarət olduğunu mənə də demədi. Belə işlərdə qapalı idi və heç kimə əvvəlcədən həyata keçirəcəyi arzu və istəklərini bildirməzdi. Həyata nikbin baxışları vardı. Hərbi xidmətə gedəndə "Ana, mənə görə heç vaxt nigaran qalma, əsgərlik kişilik məktəbidir. Xidmətimi şərəflə başa vurub qayıdacam", - deməşdi.

Elvin Babayevin hərbi xidmətinin başa çatmasına üç ay qalmış İkinci Qarabağ müharibəsi başlayıb. İlk gündən döyüş əməliyyatlarında fəal iştirak edib. Komandirləri və döyüş yoldaşları Elvinin vətənpərvər, qorxubilməz bir döyüşçü olduğunu xatirələrində bildirdilər.

8 saylı tam orta məktəbin tarix müəllimi Mehriban xanım bildirdi ki, hər bir müəllimin xatirində qeyri-adi bacarığı ilə yadda qalan şagirdlər olur. Elvin Babayev də onun xatirində intizamlı şagird kimi qalıb. Elvin hərbi xidmətə yola düşməmişdən bir gün əvvəl məktəbə gəlib onunla xatirə şəkli də çəkdirib. "Elvinlə çəkdirdiyim şəklin sonuncu olacağı heç vaxt ağlıma gəlməzdi", - dedi.

Elvin Babayev Vətən yolunda son damla qanınadək düşmənlə üz-üzə döyüşdü və 20 oktyabr 2020-ci ildə Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə şəhid oldu. Tarix müəllimi əlavə etdi ki, Elvin Babayev və onun timsalında bütün şəhidlər onun dərs dediyi məktəbdə hər zaman hörmətlə anılır və bundan sonra da anılacaqlar.

Tədbirdə çıxış edənlər bildirdilər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımız İkinci Qarabağ müharibəsindən sonra azad edildi. Qəhrəman Azərbaycan əsgərinin şücaəti ilə Zəfər qazanıldı. Ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

Sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin gənc solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirildi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Sıra hazırlığı

# "Müqəddəslik yolu sıradan başlanır"

Sıra müqəddəsdir. Bu ifadə ilk gündən gənclərin xidmətinə mayak olur. Hətta onların bu ifadə ilə tanışlığı daha əvvəl baş verir. Bu müqəddəslik gənclərə məktəbdə oxuyarkən aşılanır. Belə ki, orta təhsil ocaqlarında tədris olunan "Gənclərin çağırışaqədərki hazırlığı" dərslərində şagirdlərə ilkin hərbi anlayışlar barədə ətraflı məlumat verilir. Onlara sıra hazırlığının ibtidai vərdişləri öyrədilir. Həmçinin sıranın müqəddəsliyi aşılanır. Bu dərslərdə gənclərin qazandığı vərdişlər hərbi xidmətdə köməklərinə çatır. Xüsusən də döyüş hazırlığının tərkib hissəsi olan sıra hazırlığı hərbi xidmətin ayrılmaz tərkib hissəsidir. Çünki ordunun rəşadəti onun dəmir intizamından asılıdır. Dəmir intizam isə sıradan başlanır. Sıra əsgərlərə komanda şəklində fəaliyyət göstərməyi, dözümlü olmağı, kollektiv dəyərləri və digər müsbət keyfiyyətləri aşılayır.

"N" hərbi hissəsində əsgərlərin sıra hazırlığı məşğələsini yaxından izlədik. Şəxsi heyət sıra meydanında gizir Vüsal Novruzovun komandaları ilə silahsız sıra hərəkətlərini icra edirdi. Onlar əsgəri salamlaşma, sıradan çıxma, sıraya qayıtma, rəislərə yaxınlaşma və digər çalışmaları bacarıqla icra edirdilər. Əsgərlərin mətin addımlarını izlədikcə qürurlanırdım. Düşünürdüm ki, bu gənclər bacarıqlı, döyüş vərdişlərinə yiyələnən əsgərlər kimi formalaşıb ordumuzun gücünə güc qatacaqlar. Məşğələlərini izlədiyim gənclərdə də bu vacib amillərin müsbət nişanələri sezilirdi.



Sıra hazırlığının mahiyyətini gizir Vüsal Novruzov da vurğuladı: "Əsgərlər məşğələyə həvəslə yanaşır, hərbi vərdişləri öyrənirlər. Onların belə yüksək əhval-ruhiyyədə olması məşğələlərin səmərəliliyini daha da artırır. Hiss edirsən ki, onlar vətənpərvərlik ruhunda tərbiyə olunublar. Komandirlərin tapşırıqlarını kollektiv şəklində icra etmək, komandaları dəqiq və koordinasiyalı yerinə yetirmək, uzlaşmanı öyrənmək üçün sıra hazırlığı mühüm əhəmiyyət kəsb edir. Bunlar da döyüşdə mürəkkəb vəzifələrin uğurla yerinə yetirilməsi üçün vacibdir. Sıra hazırlığını yaxşı mənimsəyən əsgərlər döyüş qabiliyyətlərinə də dərindən yiyələnirlər".

Əsgərlərlə də həmsöhbət oldum. Toğrul Feyziyev, Kənan Əhmədov və digərləri əsgər olmağın fərəhindən, sevincindən danışdılar. Qeyd etdilər ki, həmişə ordumuza, hərbçilərimizə böyük rəğbət bəsləmişik, indi biz də hərbi mundir geyinib şərəfli peşə sahibləri ilə bir sıralarda dayanmışıq və bu, qürurludu, xoşbəxtlikdi. Həmçinin bütün təminatlarının diqqətdə saxlanıldığını, günün nizam qaydalarına uyğun olaraq bütün fəaliyyətlərin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq dedilər: "Vətəni qorumaq müqəddəsdir. Bu müqəddəslik yolu da sıradan başlanır. Yolumuzu uğurla və inamla davam etdirəcək, bacarıqlı, mətin əsgərlər kimi ərazi bütövlüyümüzün müdafiəsində inamla dayanacağıq".

Ordumuzun gücünə güc qatan əsgərlərin sıra hazırlığı məşğələsi davam edir.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan avarçəkəni dünya çempionatında gümüş medal qazanıb



Azərbaycan milli komandasının üzvü Diana Dımçenko İtaliyanın Barletta şəhərində keçirilən sahil avarçəkməsi üzrə dünya çempionatında uğurlu nəticə göstərib.

İdmançı təsnifat mərhələsində finişə hamıdan birinci çatıb. O, 4000 metr məsafəni 20:11.72 dəqiqəyə qət edib.

A.Dımçenko təsnifat mərhələsində ikinci olan Finlandiya təmsilçisi Eva Karppineni 10 saniyə qabaqlayıb. (20:21.43). Bu nəticə ilə o, A finalına vəsiqə qazanıb.

Final yürüşündə idmançılar 6000 metr məsafəyə yarışıblar. Diana Dımçenko bu məsafəni 32:20.94 dəqiqəyə başa vurub. İdmançı fransalı Cessika Berranı (32:33.92) 13 saniyə fərqlə geridə qoyaraq dünya çempionatının gümüş medalına sahib olub. O, yalnız irlandiyalı Monika Dukarskadan (32:09.17) geri qalıb.

Diana Dımçenko 2022-ci ildə Uelsdə təşkil olunan sahil avarçəkməsi üzrə dünya çempionatında da 2-ci yer tutub.

## Azərbaycanlı idmançı Daşkənddə keçirilən turnirdə qələbə qazanıb



ABŞ-da yaşayan azərbaycanlı idmançı, MMA üzrə döyüş ustası Elgün Xanoğlanlı Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Open Fighting Championship" turnirində qələbə qazanıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, o, "Renesans Hall"da tanınmış ukraynalı idmançı Roman Mayniçi məğlub edərək, arenaya Azərbaycan bayrağını gətirib.

Azərbaycanlı idmançı dünya və Avropa çempionu, bir çox başqa mötəbər turnirin qalibidir.

Qeyd edək ki, 1992-ci ildə Füzuli rayonunda doğulan Elgün Xanoğlanlı ABŞ-da 2016-cı ildən yaşayır. İdmana doqquz yaşında karatedən (Kyokuşinkaykan növü üzrə) başlayan kikboksçu 2009-cu ildən MMA döyüşçüsüdür. O, Amerika-Azərbaycan Gənclər və İdman Assosiasiyasının sədridir.

## Azərbaycan klubu voleybol üzrə Avropa Kubokunun qalibi olub



Çimərlik voleybolu tarixində ilk dəfə keçirilən Avropa Kubokunun qalibi müəyyənləşib.

Azərbaycanı təmsil edən MUROV AZ TERMİNAL turnirin qalibi olub.

Klub buna çempionluq matçında ev sahibi Türkiyənin TVF Spor Lisesi SK ANKARA klubunu 15:10 hesabı ilə məğlub edərək nail olub.

Komandalar arasında keçirilən iki oyundan birində ev sahibləri, ikincisində isə Azərbaycan təmsilçisi qələbə qazanıb. Kubokun qalibi isə qızıl setdə müəyyənləşib.

Qeyd edək ki, MUROV AZ TERMİNAL çimərlik voleybolunda Azərbaycana CEV-in təşkilatçılığı ilə keçirilən yarışlarda ilk qızıl medalı qazandırıb.

## Triatlon millimizin üzvləri beynəlxalq yarışda birinci yeri tutublar



Triatlon millimizin üzvləri Toğrul Məmmədli və Kseniya Voronina Rusiyada "IRONSTAR SPRINT SOCHI SIRIUS 2023" yarışında birinci yeri tutublar.

Triatlonçumuz Toğrul Məmmədli 16-24 yaş qrupları arasında 1-ci, kişilər arasında mütləq kateqoriyasında isə 9-cu pillədə qərarlaşıb.

Milli komandanın idmançısı Kseniya Voronina 16-24 yaş kateqoriyasında 1-ci olub. Triatlonçumuz qadınlar arasında mütləq kateqoriyasında isə 3-cü yerə çıxıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 585
Nüsxə 4760